ETNOQRAFİYA

***Kərimov E.Ə., Əliyeva M.İ.***

# TÜRKOLOQLARIN BİRİNCİ BEYNƏLXALQ QURULTAYI VƏ ETNOQRAFİYA MƏSƏLƏLƏRİ

1926-cı il fevralın 26-dan martın 5-dək Bakıda Türk mədəniyyət sarayında (indiki Azərbaycan MEA Rəyasət Heyətinin binası) Birinci Türkoloji Qurultay (BTQ) keçirildi. Türkologiyanın inkişafı tarixində ən mühüm mərhələ hesab olunan bu qurultay nəinki elmi, habelə böyük ictimai-siyasi əhəmiyyət kəsb edən bir hadisə idi. Təsadüfi deyil ki, 2006-cı ildə Bakıda bu beynəlxalq tədbirin 80 illik yubileyinə həsr edilmiş beynəlxalq konfrans keçirildi (1).

Məlumdur ki, XX əsrin 20-ci illəri Azərbaycanda sovet quruculuğunun mürəkkəb dövrünə təsadüf edir; bir tərəfdən xalqların bərabərliyi elan olunur, digər tərəfdən isə əsrlər boyu formalaşmış ənənəvi mədəniyyət inkar edilərək «yeni mülki sovet adətləri və mərasimləri» ilə əvəz olunurdu. Bu məqsədlə partiya etnoqflar qarşısında «keçmişin zərərli qalıqlarına» və «burjuaziya ideologiyasına qarşı» mübarizə aparmaq, yeni, «sovet məişətini» əsaslandırmaq vəzifəsini qoymuşdu. Təsadüfi deyil ki, keçmiş SSRİ-nin Xalq Maarif Komissarı A.V.Lunaçarski etnoqrafiyanı «sovet siyasətinin əsası» hesab edirdi. S.Ağamalı oğlu isə etnoqrafiyanın son məqsədini onun praktiki baxımdan cəmiyyətə yaxından kömək etməsində görürdü (6, 34).

Qadağalara və müxtəlif təzyiqlərə baxmayaraq o çətin illərdə xalq öz milli dəyərlərini qoruyub saxlaya bildi. Bu məsələdə Azərbaycanın görkəmli alimləri Ə.Ə.Ələkbərov, Q.T.Qaraqaşlı, R.Əfəndiyev və b. xalqın ənənəvi mədəniyyətinin öyrənilməsində böyük rol oynamışlar.

20-ci illərin mədəni həyatının ən mühüm hadisələrindən biri 1924-cü ildə Bakıda Ümumazərbaycan diyarşünaslıq qurultayının keçirilməsi idi. Bu qurultay türkoloqlarının Bakıda keçiriləcək tədbirə hazırlıq işləri aparılması sahəsində ciddi tədbirlər gördü. Bu baxımdan etnoqraf və arxeoloq Ə.Ə.Ələkbərovun fəaliyyəti xüsusilə qeyd olunmalıdır. Milli ziyalılarla yanaşı Azərbaycan türkologiya elminin inkişafında başqa xalqların nümayəndələri – görkəmli şərqşünaslar, dilçilər, tarixçilər və etnoqraflar fəal iştirak etmişlər. Bu cəhətdən V.V.Bartold, N.Y.Marr, V.Miller, A.N.Samoyloviç, İ.İ.Meşşaninov, Rümin, R.A.Zifeldt-Simumyaqi, A.Qenko, Ə.Qubaydullin, Q.F.Çursinin xidmətləri xüsusilə qeyd olunmalıdır. Onların çoxunun elmi fəaliyyəti Bakı Dövlət Universiteti ilə bağlı idi.

Məlumdur ki, V.V.Bartold 1924-cü ildə Bakı Dövlət Universitetinin Şərq fakültəsində «Müsəlman dünyası tarixində xəzəryanı bölgələrin yeri probleminə həsr olunmuş mühazirələr kursu oxumuşdur. XX əsrin 20-ci illərində N.Y.Marr da həmin universitetdə «Yasəfi nəzəriyyəsinə» aid mühazirələr oxumuş və bu məsələyə həsr olunmuş dərs vəsaiti buraxmışdır (2).

Bütün bunlar göstərir ki, qurultayın məhz Azərbaycanda təşkil olunması heç də təsadüfi deyildi.

Məlumdur ki, Azərbaycan əsrlər boyu Şərqlə Qərb arasında «kulturtreqer» – mədəniyyət daşıyıcısı rolunu oynamışdır. Bu barədə hələ 1922-ci ildə Xalq Maarif

Komissarı D.Bünyadzadə yazırdı ki, Azərbaycanın Şərqdə – Türküstanda, Krımda, Xivədə, Buxarada, İranda, Dağıstanda və başqa müsəlman bölgələrində mədəni təsiri get-gedə artmaqdadır. Belə ki, bütün bu respublikalar və habelə Gürcüstan azərbaycanlıları mədəni-maarif sahəsində Azərbaycan Xalq Maarif Komissarlığına müraciət edir, ali məktəblərdə təhsil almaq üçün tələbə göndərirlər (5).

Qurultayın açılışı günü «Бакинский рабочий» qəzeti redaksiya məqaləsində bu tədbirin tarixi əhəmiyyəti haqqında yazırdı: «İndiyədək Qərb imperialistlərinin əlində istismar və müstəmləkəçilik aləti olan türkologiyanı tarixin naməlum qiymətli faktlarını aşkar edə bilən bir mərkəzə çevirmək lazımdır» (4).

Qeyd etmək lazımdır ki, istər qurultay ərəfəsində və istərsə də bu tədbirdən sonra türkologiya elminin bədxahları, xüsusilə də ermənilər türk dünyasına qarşı öz düşmən münasibətlərini təbliğ etməklə məşğul idilər. Bunu Vahanyanın Tiflisdə azsaylı xalqlar arasında aparılan işlərə həsr edilmiş müşavirədəki çıxışı bir daha təsdiq edir. O demişdir: «Azərbaycan zəhmətkeşlərinin gerçək mədəniyyəti rus mədəniyyəti və rus dilinin güclü təsiri altında inkişaf edir…, ölü mədəniyyət işə get-gedə geriyə – ərəblərin və osmanlıların köklərinə doğru sürükləyir. Türk dilinin osmanlaşdırılması da mədəniyyət daşıyıcılarının fəaliyyətinin nəticəsidir» (6). O zaman SSRİ-də yaşayan 24 milyonluq türk xalqlarının təmsil edən qurultayın yüksək səviyyədə keçməsi belələrinə tutarlı cavab idi.

Qurultayda 131 nəfər rəsmi nümayəndə iştirak edirdi. Onun 93 nəfəri türk xalqlarından idi. Qurultayın işində azərbaycanlılar fəal iştirak etmişlər. Bunlardan Ruhulla Axundov, Mirzə Davud Hüseynov (Zaqafqaziya Xalq Maliyyə Nazirliyi, Tiflis), Həbib Cəbiyev, S.Ağamalı oğlu, Ayna Sultanova, Həmid Sultanov, Cahangir Nağıyev Rostov Ş.), Bala Əfəndiyev (İrəvan ş.), Hənifə Zeynallı, Cabbar Abbas oğlu, Cəlil Məmmədquluzadə (XMK-nın müavini), Həsən Musayevin adlarını çəkmək olar.

Qurultayda Qafqazda yaşayan türk xalqlarının dili və tarixi ilə yanaşı etnoqrafiyasına da çox geniş yer verildi. 1926-cı ildə etnoqraf-qafqazşünas Q.F.Çursin çox haqlı olaraq yazırdı ki, keçmişdə qafqazşünaslıq pərdəsi altında əslində gürcüşünaslıq və ermənişünaslıq məsələləri tədqiq edilirdi (12, 76-81).

Məruzələrdə qaldırılan problemlər, onların əhatə dairəsi bir çox amillərdən – o zamankı türkologiya və etnoqrafiya elmlərinin inkişaf səviyyəsi və partiyanın bu elm sahələrini sovet quruluşu sisteminə uyğunlaşdırmaq, aparılan milli siyasətin xarakteri və s. asılı idi. Bunlardan başqa XX əsrin 20-ci illərində N.Y.Marrın dilçilikdə «Yasəfi nəzəriyyəsi» etnoqrafiya elminə də özünün çox güclü təsirini göstərməkdə idi. N.Y.Marr qurultayda iştirak etmirdi. Lakin etnoqrafiyaya aid bütün məruzələrdə bu nəzəriyənin təsiri özünü göstərmkdə idi. Çünki N.Y.Marrin nəzəriyyəsi sovet siyasətinin tələblərinə cavab verirdi. O, belə hesab edirdi ki, dilin özü sinfidir. Ona görə də onun nəzəriyyəsi ölkədə «sinfi mübarizə» aparmaq üçün bir alətə çevrilmişdi. Bundan başqa o iddia edirdi ki, bütün yollar, tarixin gedişi bəşəriyyəti vahid bir dilə doğru aparır, bu isə o zaman «kommunizm qurucuşunun» əsas şərtlərindən biri hesab olunurdu.

N.Y.Marrın hind-Avropa dillər ailəsini inkar etməsi də partiya üçün çox şərəfli idi. N.Y.Marrın bu konsepsiyası kapitalizmə, «Qərbin burjuaziya ideologiyasına» qarşı çıxmaq üçün də bir vasitə idi. N.Y.Marr iddia edirdi ki, bütün dünya dilləri guya vahid qllottogenetik proseslərin məhsuludur. O, Qafqaz dilləri ilə semit dilləri

arasında yaxın qohumluq əlaqələrinin olmasını sübut etməyə çalışır, mürəkkəb etnoqrafik problemləri yalnız dilçilik elminin köməyi sayəsində həll etməyə üstünlük verməyə səy edirdi. N.Y.Marr miqrasiya prosesləri ilə bağlı bir-birinə zidd fikirlər irəli sürür, etnik mənsubiyyətlə dil mənsubiyyətini qarışdırırdı.

Qurultayda üç məruzə bilavasitə türk xalqlarının etnoqrafik baxımdan öyrənilməsi və qarşıda duran vəzifələrə həsr olunmuşdu. Q.F.Cursinin «Qafqaz türklərinin etnoqrafik baxımdan öyrənilməsinin ən yaxın vəzifələri», macar alimi Y.Mesaroşun «Anadolu və Balkan türklərinin etnoqrafik baxımdan öyrənilməsinin müasir vəziyyəti və ən yaxın vəzifələr», S.İ.Rudenkonun «Türk tayfalarının etnoqrafik baxımdan öyrənilməsinin müasir vəziyyəti və ən yaxın vəzifələr» adlı məruzələri dinlənildi.

Zaqafqaziya MİK-nin nəzdindəki Zaqafqaziya elmi assosiasiyasının etnoqrafiya şöbəsinin müdiri Q.F.Çursin qeyd etdi ki, Qafqazda 10-a yaxın türkdilli xalq yaşayır. O, bu xalqların təsərrüfat və ictimai məişətinin tipoloji aspektlərinə toxunaraq onların sosial inkişaf səviyyəsi baxımından heç də eyni səviyyədə olmadıqlarını xüsusilə vurğuladı. Məruzəçi ailə və mənəvi mədəniyyət sahəsində də xalqlar arasında fərqli və ümumi cəhətlərə xüsusi diqqət yetirmiş, qurultay iştirakçıları qarşısında türk xalqlarının etnoqrafiyasını planlı və sistematik öyrənmək üçün konkret vəzifələr irəli sürdü. Q.F.Çursin bu məqsədlə bu xalqlara həsr edilmiş biblioqrafik göstəricilərin, ərəb və başqa dillərdə olan mənbələri toplayıb nəşr etdirməyin, ayrıca elmi-tədqiqat institutunun təsis edilməsinin zəruriliyini xüsusilə qeyd etdi. Bundan başqa məruzədə türk xalqlarının etnoqrafiyasına həsr edilmiş muzeyin təsisi və Bakı Dövlət Universitetində etnoqrafiya fənninin geniş tədris olunması zəruri hesab edildi. Bununla bərabər məruzəçi azərbaycanlıların etnogenezindən bəhs edərək bir sıra yanlış fikirlərə yol vermiş və türk xalqlarının Qafqaza «sonralar gəlməsini» iddia etmişdir (12).

Etnoqraf S.İ.Rudenko məruzəsində türk xalqlarının çox geniş bir sahədə – Cənubi-Qərbdə Aralıq dənizindən başlayaraq Şimali-Şərqi Asiya, Cənubi-Şərqdə - Tyan-Şan və Pamirdən tutmuş Şimali-Qərbdə yerləşən Orta Volqaboyu bölgələrini əhatə edən geniş bir ərazidə məskunlaşdıqlarını qeyd etdi. Onun məruzəsi əsas etibarilə Şimal və Şimali-Qərbdə yaşayan türklərin etnoqrafiyasına həsr edilmişdi.

S.İ.Rudenko türk xalqlarının etnoqrafiyasının zəif öyrənilməsini bir daha təsdiq etdi. Bu xalqların qədim tarixini öyrənmək üçün paleoetnoqrafik tədqiqatların aparılmasını zəruri hesab edən məruzəçi bir sıra səhv fikirlərə də yol verərək və bütün türk xalqlarını «köçəri maldarlar» kimi səciyyələndirməyə çalışdı. O belə hesab edirdi ki, bu xalqların mədəniyyətinin əsasını yalnız «köçəri maldarlıq» təşkil edir. Guya oturaqlara məxsus zərgərlik, xalçaçılıq və başqa sənət sahələri onlara başqa xalqlardan keçmişdir.

Məruzəçi keçmişdə türklərdə əkinçiliyin çox aşağı səviyyədə («toxa əkinçiliyi») olduğunu sübut etməyə çalışır, bağçılıq və bostançılıq daxil olmaqla bu təsərrüfat sahələrinin də guya qonşu xalqlardan alınmasını iddia edirdi (11, 63-64; 67).

V.V.Bartoldun türk xalqlarının tarixinin öyrənilməsinə həsr edilmiş məruzəsində də bəzi etnoqrafik məqamlara yer verilmişdir. Məruzəçi qeyd etdi ki, türk xalqlarının tarixini öyrənmək üçün təkcə türkoloq olmaq kifayət deyil, bu məsələyə ərəbşünasları, iranşünasları və sinoloqları da cəlb etmək zəruridir (3, 20).

Orxon-Yenisey yazılarını bu xalqların qiymətli yazılı abidəsi hesab edən

V.V.Bartold şərqşünas Pelonun fikrinə əsaslanaraq IV-V əsrlərdə Çinin şimalında yaşayan syanlıların türk mənşəli olmasını bir daha təsdiq edir (3, 19).

Məruzədə uyğurların və qırğızların vaxtilə Monqolustandan və Yeniseyin sahillərindən gəlmələri fikri də xüsusilə vurğulanır.

V.V.Bartold qeyd etdi ki, islam dini xalqların irqi və mədəni mənsubiyyətindən asılı olmayan yeganə dünya dinidir. Ona görə də məhz islam mənşə və mədəni keçmişinə görə müxtəlif xalqları öz təsiri altına ala bilərdi. Bununla bərabər V.V.Bartold da türk xalqlarına onların mədəni səviyyəsinə münasibət məsələlərində bəzi nöqsanlara yol vermişdir. V.V.Bartoldun məruzəsindən belə nəticə çıxarmaq olur ki, indi əsas vəzifə «geridə qalmış» türk xalqlarını «qabaqcıl xalqların» səviyyəsinə çatdırmaqdan ibarətdir.

V.V.Bartoldun fikrinə görə indiyədək köçəri türk tayfalarının tarixi guya əsas etibarilə onların qonşularının məlumatları əsasında öyrənilmişdir. Məruzəçi «fikrini» daha da inkişaf etdirərək türk xalqlarının ana dillərində ədəbiyyatın olmamasını da iddia etmişdir.

Y.Mesaroş öz məruzəsində Anadolu türklərinin öyrənilməsi sahəsində geniş işlər görüldüyünü qeyd etdi və Ankarada yenicə təşkil olunmuş etnoqrafiya muzeyinin fəaliyyətindən bəhs etdi. Məruzədə əsas diqqət Anadolunun qədim əhalisinin etnik tərkibinə yetirilmişdi. Alimin fikrinə görə Kiçik Asiyanın ən qədim sakinləri Avropadan gəlmiş «hind-Alman və eramızdan əvvəl ikinci minillikdə yaşamış alrod tayfalarıdır. Məruzəçiyə görə arodlar Cənubi Qafqazın da ən qədim sakinləri idilər. O, türklərin etnogenezini öyrənmək üçün türk dilinin bu ərazidə yayılmış bütün dialektlərinin və şivələrinin xəritələşdirilməsini zəruri hesab edirdi (8, 71). Lakin məruzədə yuxarıda qeyd olunan tayfaların dilləri və onların türklərin etnogenezində rolu məsələləri açıqlanmır və türklərin bu ərazidə guya XI-XIII əsrdən yaşadıqları iddia olunur. Bütün bunlarla kifayətlənməyən Y.Mesaroş kobud səhvlərə yol verərək Türkiyə ərazisinin bir hissəsini «Ermənistan» adlandırır (8, 71).

A.A.Millerin «Türk xalqlarında bədii sənət» mövzusunda məruzəsi müxtəlif ornamentlərin tarixini, semantikasını öyrənmək baxımından böyük maraq doğurur. Lakin başqa məruzələrdə olduğu kimi sənətşünas A.A.Millerin də çıxışında «Yəsəfi nəzəriyyəsinin» təsiri hiss olunmaqdadır. O Azərbaycan ornamentinin arxaikliyini və orijinallığını qeyd etməklə bərabər vaxtilə bu sənət sahəsinin İranın təsirinə məruz qaldığını da iddia edirdi (9, 84).

Qurultay türk xalqlarının etnoqrafiyasını öyrənmək üçün xüsusi komissiya təşkil etdi (A.A.Miller, A.Tağızadə, S.İ.Rudenko, Y.Mesaroş, Yakovlev, Q.F.Çursin və b.). Komissiyaının qərarında türk xalqlarının dəqiq say tərkibinin müəyyənləşdirilməsi, bu xalqların təsərrüfat məişətinin ayrı-ayrı sahələrinin və o cümlədən məişət elementlərinin yayılma arealını xəritələşdirmək, ölkənin türk mərkəzlərindən birində «Türk xalqlarının muzeyinin» təsis olunmasını, orta məktəblərdə etnoqrfiya fənninin tədrisinin zəruriliyi və türk xalqlarının gənclərinin ölkənin aparıcı ali məktəblərinə təhsil almaq məsələləri geniş öz əksini tapmışdı (10, 403-405).

Son olaraq onu qeyd etmək lazımdır ki, Türk xalqlarının qurultayı dünya türkologiyası tarixində dərin iz buraxmış və bu günədək öz aktuallığını itirməmişdir. Qurultayın məhz Azərbaycanda çağırılmasının böyük elmi və siyasi əhəmiyyəti var idi.

Qurultaydakı məruzələri heç də birmənalı qiymətləndirmək olmaz. Bu məsələdə dövrün ictimai-siyasi vəziyyəti, milli siyasətin xüsusiyyətləri və başqa amillərin rolu

az olmamışdır. Bəzi məruzələrdə qədim tarixi köklərə malik olan türk xalqlarının, o cümlədən azərbaycanlıların, Anadolu türklərinin etnogenezinə, mədəni irsi və s. məsələlərin həllində reallıqdan uzaqlaşmalarının səbəblərinin bir qismi yuxarıda qeyd olunan amillərlə bağlıdır.

Maraqlıdır ki, 2006-cı ildə qurultayın 80 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda 1926-cı ildəki məruzələrdə qurultayın materiallarına, qaldırılan məsələlərə tənqidi münasibət bildirilmədi.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Konfrans haqqında ətraflı bax: «Birinci Türkoloji qurultayın 80 illik yubileyinə həsr edilmiş elmi konfransın tezisləri», Bakı, 2006.

Rus dilində

2. Bartold V.V., «Müsəlman dünyası tarixində xəzəryanı bölgələrin yeri, Bakı, 1999; Марр Н.Я., Яфетичекая теория, Программа общего курса, Баку, 1927.
3. Бартольд В.В. Современное состояние и ближайшие задачи изучения истории турецких народностей, Первый Всесоюзный… с. 20.,
4. «Бакинский рабочий», 26 февраль, 1926.
5. «Жизнь «национальностей», №5 II), М, 1922.
6. Закавказское совещание по работе среди нацменьшинств, речь Ваганяна, «Заря Востока», Тифлис, 9 июул 1926.
7. Известия Общества Обследования и Изучения Азербайджана, Баку, 1926, № 1, səh.34.
8. Месарош У., Современное состояние и ближайшие задачи изучения этнографии анатолийских и балканских журков, Первый Всесоюзный… с. 71-73.
9. Миллер А.А. Об изобразительном искусстве тюркских народов, Первый Всесоюзный… с. 84.
10. Постановление этнографической комиссии Тюркологического съезда, Первый Всесоюзный… с. 403-405.
11. Руденко С.И. Современное состояние и ближайшие задачи этнографического изучения тюркских племен. «Первый Всесоюзный тюркологический…», с. 63-64, 67.
12. Чурсин Г.Ф. Ближайшие задачи этнографического изучения кавказских тюрков. «Первый Всесоюзный тюркологический съезд. 26 февраля – 5 марта 1926 года (стенографический отчет). Баку, 1926, с. 76-81.

**Kerimov E.A., Alieva M.I.**

## I TURKOLOGY CONGRESS AND QUESTIONS ON ETHNOGRAPHY

### *S U M M A R Y*

I Congress of Turkic speaking people was held in 1926 in Baku. Questions on Ethnography were widely investigated also at the Congress. Azerbaijan scientists took active part at the Congress.

**Керимов Е.А., Алиева М.И.**

## I ТЮРКОЛОГИЧЕСКИЙ КОНГРЕСС И ВОПРОСЫ ЭТНОГРАФИИ

### *Р Е З Ю М Е*

В 1926 году в Баку был проведен I Конгресс тюркских народов. На конгрессе были также широко освещены вопросы этнографии.

Азербайджанские ученые приняли активное участие в конгрессе.